GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

[www.qurtulush.se](http://www.qurtulush.se)
[qurtulush.partiyasi@gmail.com](mailto:qurtulush.partiyasi@gmail.com)

*Sevgili millətimiz, Bu həftədən başlayaraq "Güney Azərbaycan Qurtuluş Partiyası"nın Siyasi Bölümü tərəfindən Həftəlik Yorum adı altında hər həftə içində dünyada üzverən və bölgəmizi etgiləndirən siyasal olayların araşdırılması olacaqdır. Umarıq Partiyamızın Siyasi Bölümünün bu çabası millətimizin dünya görüşündə olumlu izlərin yaranmasına nədən olsun!*

**Həftəlik Yorum!**
**(1)**
**2008-11-19**

# Türkiyə, İran İlişgilərində PKK və PEJAK Manovrası!

**PKK"nın İran qolu olan Pejak yayınladığı bir bildiride İran'da ki saldırılarını durdurduğunu ve Türk əsgərinə qarşı PKK"nın yanında savaşacağını açıqladı. Görünən o ki Məsud Barizani"nin son Tehran gəzisi və İran Dini lideri ile görüşündə ki İran"ın Kürd bölgəsinə olan saldırılarına son vermə tələbi Pejak"in bu qərarinda etgili olmuşudur.**

**Iraq savaşı ilə bərabər bölgədə ki dəngələrin dəyişməsi hər kəs tərafindən bilinməkdədir. Eskidən Türkəyeye qarşı PKK'dan himaye eden İran Türkiyə'nin PKK'dan himayə edən ölkələrə qarşı ciddi tutumunu görüncə, dünyada yalnızlaşınca və Türkiyə'də AKP'in iqtıdara gəlməsi ilə Türkiyiye yaxinlaşmaga məcbur qaldi.**
**İran'in PKK'dan uzaqlaşması və Türkiyəyə yaxınlaşması PKK'nın İran'na qarşı qullanmadiği Kürd kartını qullanamqa başlamasınıda etgili oldu. Ayrıca Kürdüstan Demokrat Partiyasi və Komilə Partiyasi kimi Partiyalarin İran'in kürd bölgələrində silahılı mücadiləyi buraxmasindan doğan boşluğu və Iraq'ın quzeyinde ki kürd bölgəsinin yöneticilerinin görmezlikdən gəlmələrindən yararlanaraq 2004 də qurulan Pejak qısa zamanda bölgədə ki siyasi oyunlarda bir unsur kimi ortaya çixdi. İndi artıq**

**bölgədə ki oyunda Pejak da bir çənə vurmaq aracı kimi kürdlər tərəfindən qullanılmaqdadır.**

**Pejak"ın bu qərarı Kürtlərin bir bütün olaraq hərəkət etdiklərini ağla gətirməkdədir. Barizani izlədiği bu diplomasi ile bütün kürtlerin təmsilcisi kimi hərəkət etməkdədir. Əslində Barizani bütün Kürtler ve bölgədəki dövlətlər tərəfınden ,kürtlərin təkcə lideri kimi qəbul edilməsini arzulamaqda və bu yöndə hərəkət etməkdədir. Barizani eyni zamanda bu hərəkəti ilə bölgədəki ölkələrədə gücünü göstərmək istəmişdir. Digər tərəfdən bu hərəkət ilə Barizani, Pejak və PKK, İran və Türkiyenin birgə olaraq düzənlədikləri operasyonları səktəyə uğratmaya çalışmaqdadır. Barzani Pejak"i PKK"nın yanında Türkiyeye savaşmaya yönəltərək kürdlər üçün iki cəbhə yerinə bir cəbhədə savaşmanın daha etgin olacağına inanmaqdadir. Barzani ilə Pejak İran və Türkiyənin birgə harəkət etməsini beləliklə poza biləcağini düşünməkdədirlər.**
**Iraq"ın qüzeyində özəl bir movgeiyət(qonum) qazanan kürdlər bu qonumlarını qoruyub gücləndirmək yoğun bir çaba içindədirlər. Barzani"nin ABŞ və İran gəzisində sonra Pejak"ın bu qərarı alması da çox diqqət çəkicidir.**

**İran"ın Ərbil"də ilk konsolosluq açan ölkələrdən biri olması, Iraq"in quzeyindəki kürdlərin İran"da ki bəzi ıdman yarışmalarında və sərgilərdə ,Iraq bayrağıla değildə Kürt bayrağıla iştirakət etmələri və İran"ın Iraq kürt bölgəsindiki yatrırımları kimi faktorlar ayrıca İran"in Iraq şiələri üstündəki etgisi İran"ı kürdlər üçün fərgli qılır. Bütün bunlar bölgədə yeni bir düzen qurmaq niyətində olanların Barizani ,kürdləri və İran"ı necə yönləndirmək istədiklərinin də ip ucunu verməkdədir. İran isə bu oyunda karlı çıxan tərəf olmaq üçün özünə məxsus bir oyunu pılanıyla hərəkət etməkdədir.**
**Ayrıca İran əski içişləri baxanın da etıraf etdigi kimi " İran"in ən önemli sorunu olan Qeyri Fars millətlərin fəaliyətlərini kontorol altına almaq" amacı ilə kürd bölgəsində birazda olsa rahtlayaraq gücünü Azərbaycan, Bəluçıstan və Ərab bölgələrində yoğunlaşdırmaq imkanini əldə etməkdədir.**
**Ama İran öz gözündə dirəgi görməib başqalarının gözündə çöpü görənlərdən olduğu üçün bütün çabalarına baxmayaraq demokratik bir düzən və sistimə geçmədəgi sürəcə nə bölgə nə xalqı üçün olumlu bir rol oynayacğını ön görmək mumkun dəğildir.**

**Güney Azərbaycan Qurtuluş Partiyasi**
**Siyasi bölüm**
**Yazar: U.E**